# Göyərçin

№ 4 1999

ISSN-0207-4710



# DÜNYA XALQLARININ NAĞILLARI



## AĞ GÜL VƏ QIRM GÜL

FRANSIZ NAĞILI

Rəssam *Oqtay QULİYEV*



Məşhur bir qrafın Marqarita adlı qızı va Onun gözəlliyi hamını heyran etmişdi. H heç kəs bu gözəlin qəlbinə hakim ola bilmi bilmirdi.

Yalnız Jan adlı bir cəngavərdən qızın xoş lirdi. Jan da bütün qəlbi ilə qızı sevirdi.

Elə bu zaman qraflığın meşələrində bir A peyda oldu. Bu Azman quldurluq edir, ona qavimət göstərənləri öz böyük çomağı ilə milçək kimi öldürürdü.

Bunu eşidən qraf dedi ki, kim həmin Azmanı öldürsə, öz gözəl qızını ona verəcək.

Cəngavərlər bəxtlərini sınadılar, ancaq heç kəs döyüşdən salamat qayıda bilmədi.

Jan da öz bəxtini sınamaq qərarına gəldi. Onu görən Azman rişxəndlə güldü. Jan atını cəsarətlə Azmana sarı çapdı. Ona çathaçatda hiylə işlətdi. Qışqırdı:

— İgidlərim, Azmanı arxadan vurun.

Azman çaşıb arxaya çevrildi. Bundan istifadə edən Jan Azmanı arxadan vurub öldürdü.

Bu xəbəri eşidən qraf sevinsə də, qızını ad-sanı olmayan cəngavərə vermək istəmədi. Cəngavərə belə bir şərt qoydu:

— Sabah mən bir kisənin içinə ağ və qırmızı rəngli iki gül qoyacağam. Əgər qırmızı gülü kisədən çıxarsan, qızımı sənə verəcəyəm, çıxara bilməsən, səni öz məmləkətimdən qovacağam.





Axşam qraf öz qızına dedi ki, heç də narahat olma. Mən kisəyə iki ağ gül qoyacağam. Cəngavər o güllərdən birini çıxaran kimi onu qraflığın ərazisindən qovacağam.

Qız gecə ikən qulluqçu vasitəsi ilə bu xəbəri Jana çatdırdı.

Səhər tezdən adamlar hamısı meydana toplaşdılar. Hamını gənc cəngavərin taleyi maraqlandırırdı.

Şən şeypurlar çalındı. İçinə gül qoyulmuş kisə meydana gətirildi. Cəngavər əlini kisəyə salıb güllərdən birini ovcunda çıxardı. Heç kəs onun hansı gülü çıxardığını görə bilmədi.

Cəngavər dua oxuya-oxuya dedi:

— Ey mənim taleyim, mənə yar ol.

Oğlan bu sözləri deyib ovcundakı gülü qəflətən ağzına qoydu və çeynəyib uddu. Onun hansı gülü çıxardığını müəyyənləşdirmək üçün kisədə qalan gülə baxmaq lazım gəldi.

Hamı sevinirdi. Kisədə ağ gül qalmışdı. Deməli cəngavərin yediyi çiçək qırmızı imiş.

Hamı cəngavəri və qızı təbrik etdi. Heç kəs qrafın acıqlı sifətinə fikir vermədi.

Şən toy mərasimi başladı və bu toy bir neçə gün davam etdi.

**Tərcümə edib işləyəni R. ƏLİYEV**

## BİR APRELDƏ

İLYAS TAPDIQ

**"Yaxana qatıq**
**Düşüb, təmizlə!"**
**Deyib, Güllünü**
**-Minay aldatdı,**
**Güllü güzgüyə**
**Baxıb gördü ki,**
**Qız yalan deyir.**
**Bunünçün onun**
**Saçını dartdı,**
**Qızı ağlatdı.**
**Aytac onları**
**Görüb ayırdı,**
**-Dalaşmayınız!-**
**Dedi, -ayıbdı,**
**Biri apreldə**
**Bu, zarafatdı.**

